"DÜŞÜNCƏ" DƏRGISININ PULSUZ ƏLAVƏSI: 3
FIZIKA - KIMYA - BIOLOGIYA: 1

ƏDALƏT TAHİRZADƏ

# İSGƏNDƏR RZAZADƏ -



# AZƏRBAYCANIN İLK ENERGETİKİ

2000
362

327
T28

Dosent
ƏDALƏT TAHİRZADƏ

# İSGƏNDƏR RZAZADƏ -
# AZƏRBAYCANIN İLK ENERGETİKİ

68581



68312

"Kür" nəşriyyatı
Bakı - 2000

3 27.д + Т3(2А)д

"DÜŞÜNCƏ" DƏRGISININ PULSUZ ƏLAVƏSI: 3
FIZIKA - KIMYA - BIOLOGIYA: 1

*Elmi redakor:*
Rəhim RƏHIMLI

*Yığıcı:*
Ülviyyə NƏRIMANLI

*Bilgisayar dizaynı*
Şəmşir TEYMUROĞLU'nundur

Ədalət TAHIRZADƏ.
Isgəndər Rzazadə - Azərbaycanın ilk energetiki.
Bakı. "Kür" nəşriyyatı, 2000. 36 səh.

Bu kitabça Azərbaycanın ilk energetiki Isgəndər Mirzə Cabbar xan oğlu Rzazadənin (1897-1937) həyat və yaradıcılığına həsr edilib.
Əsər ali və orta məktəb müəllimləri, elmi işçilər, aspirantlar, tələbə və şagirdlər üçün nəzərdə tutulub.

$T\frac{2302040000-051}{061-2000}$

© "Düşüncə" dərgisi, 2000

*"Kür" nəşriyyatı mətbəəsində (akad Z.Xəlilov küç., 25)*
*1000 nüsxə basılıb*

# MÜƏLLIFDƏN

*"DÜŞÜNCƏ" dərgisinin oxucularına təqdim edilən bu kitabça 1989-cu ilin başlanğıcında Elmlər Akademiyasının Əlyazmalar Institutunda işlədiyim çağda qələmə alınıb və o zaman Akademiyanın "ELM" qəzetində (4 fevral 1989, №5) və müstəqil "DÜNYAYA QAPI" qəzetində (dekabr 1991, №№ 24-27) qısaltmalarla dərc edilib. Bundan sonra görkəmli alim, müəllim və mühəndis Isgəndər Rzazadə haqqında bir çox maraqlı faktlar və sənədlər toplasam da yenidən bu mövzuya qayıtmadım. Yalnız indi -"DÜŞÜNCƏ" dərgisi nəşr edilərkən I.Rzazadəni bir daha tanıtmağı gərəkli saydım. Onun həyatını daha incəliklə öyrənməkçün bir müddət MTN arxivində işlədim.*

*1989-da yazdığım mətn bu nəşrdə həm bütövlüklə, həm də xeyli əlavələrlə və yenidən işlənilmiş biçimdə verilir.*

*Çox təəssüflənirəm ki, Isgəndər Rzazadə kimi olduqca görkəmli bir şəxsiyyət xalqımızın yaddaşından silinib.*
*Ancaq ən ürəkgöynədən hal budur ki, onun haqqında məqalənin dərc edilməsindən 10 ildən çox vaxt keçsə də Akademiya başda olmaqla heç bir elm ocağından indiyədək bir səs-səmir çıxmayıb. Belə ağır itkiyə bugünədək soyuqqanlılıqla dözmək barışılmaz tarixi ədalətsizlikdir. Inanmaq istərdim ki, Azərbaycan Elmlər Akademiyası, onun uyğun elmi qurumları, Elmi-Tədqiqat Energetika Institutu və b. elmi mərkəzlər Isgəndər Rzazadə irsinin yenidən millətimizin malı edilməsi üçün, nəhayət, bir iş görməyə başlayacaqlar.*

*Yeri gəlmişkən, AR Milli Təhlükəsizlik Nazirliyi arxiv şö'bəsinin rəisi Xaqani Bağırova və həmin şö'bənin əməkdaşı Şamil Naibova həm I.Rzazadəyə, həm də repressiya olunmuş başqa görkəmli insanlarımıza aid arxiv sənədləriylə tanış olmağıma lütfkarlıqla şərait yaratdıqlarına görə minnətdarlığımı bildirirəm.*

23 may 2000-ci il.

# AXTARIŞ

*Allah hər şeyi biləndir!*
*(Qur'an, "ər-Rum": 62)*

Dərdli insanların acı keçmişlərini üzə çıxarmaqda mənə can-başla köməklik göstərən Elmlər Akademiyası mərkəzi elmi arxivinin işçiləri Aliyə xanımla Kəmalə xanımın gətirdikləri şəxsi işdəki ünvanı öyrənərək yeni bir məş'um ömür yolunu araşdırmaq yanğısı ilə onlardan ayrılıb *"İsmailiyyə"*dən küçəyə çıxanda 1988-in 27 avqustu idi. İsti beyini deşir, gün asfaltı qaynadırdı. Sənədlərdən tanış olduğum insanın böyüklüyü haqqında məndə yaranan təəssürat isə onu bir an da gecikmədən, elə günü bu gün tapmağa sövq edirdi. Özü də, bu insanın adının indiyədək heç yerdə çəkilməməsi, tarixin 51 yaşlı ağbədiyə haqsızlığı da məni *"Basin küçəsi, 79, 43-cü mənzil"* adlı ünvana qovurdu.

Doğrudur, bilirdim ki, "xalq düşməni" kimi tutulmuş, işdən çıxarılmış bir çoxlarının vaxtilə yaşadığı evlər bu gün sökülüb, yerində başqaları tikilib. Bir zaman böyük qurucu Əliş Ləmbəranski də Basin (indiki Füzuli) küçəsinin yastı-yapalaq evciyəzlərini vağzaldan Lenin (indiki "Respublika") sarayınacan götürdüb təmizlətmişdi; deməli, axtardığım ev də onların arasında ola bilərdi.

Bu düşüncələrlə Beşmərtəbənin qarşısına çatanda tək nömrələrin küçənin üst qatında qaldığını görüb arxayınlaşdım. Nədənsə, əmin idim ki, bina salamatdır və alimin qohum-qardaşından da hökmən kimisə tapacağam. Ancaq 79-cu evin yaxında, yoxsa uzaqda olduğunu bilmədiyim üçün soldakı binaların nömrələrini saya-saya Basinlə üzü vağzala yol aldım. Sən demə, 79 küçənin lap qurtaracağında, vağzalla burun-buruna olan bina imiş. Gəlib bura çatanda kələyim kəsilmiş, yorğunluq o yana, isti məni əldən salmışdı.

Nə isə. Yuxarı çıxıb 43-cü mənzilin zənginin düyməsini basdım. Qapının arxasından bir qadın səsi kimi axtardığımı soruşdu. Dedim ki, Akademiyadan gəlmişəm, vaxtilə bu mənzildə yaşamış dosent İsgəndər Cabbar oğlu Rzazadənin qohumlarını axtarıram. Səs dedi ki, burada Rzazadə yaşamır. Dedim ki, onda heç olmasa onun mənzilinə köçənlərlə görüşmək istəyirəm.

Uzaqlaşan ayaq tappıltısı eşidildi. Aradan bir müddət keçsə də çəç-səmir çıxmadı. Yenə zəngi basdım. Bu dəfə qoca bir qadın gəldi, qapını açıb nə istədiyimi soruşdu. Dedim ki, mən 1937-ci ildə "vətən xaini" kimi işdən çıxarılmış alim İsgəndər Rzazadənin ailəsi haqqında mə'lumat almaq istəyirəm. İşdən çıxarılandan sonra onun başına nə gəldiyi mənə bəlli deyil, ona görə də yaxın adamlarını soraqlayıram. Siz onun keçmiş mənzilində yaşayırsınız, bəlkə bu haqda bir şey bilərsiniz.

Qadın məni içəri çağırdı və... hönkürtü ilə ağlamağa başladı. Gözlərindən yaş dolu kimi tökülürdü. Özünü heç cür ələ ala bilmirdi. Dedi ki, oğul, adım Hökümədir, 71 yaşım var. Mən Universitetdə oxuyanda Əhməd Kazımov adlı bir cavan filosofu





sevirdim. O da məni özünə çox yaxın sayırdı. Olduqca centlmen gənc idi. Çox gözlədim, gəlmədi. Ərə də getdim, uşaqlarım da oldu, ancaq onu bu gün də ürəyimdən çıxara bilmirəm. Bu gün də Əhmədin xəyalı ilə yaşayıram. Xahiş edirəm ki, öyrən görək mənim Əhmədimin başına nə gəldi...

Gözləmədiyim sel kimi göz yaşları, 71 yaşlı qadının öz ürəyində 51 il ən dəyərli yadigar kimi qoruyub saxladığı ilk sevgisinə sədaqəti məni sarsıtdı. Hətta bir an bura niyə gəldiyimi də unutdum. Handan-hana toxtaqlıq tapdım.

Bir azdan qonşular da başımıza toplaşdılar. Hökümə Salamzadə'nin qartmağı qopmuş yaralarına toxunmaq istəmədiyimdən, onun qızına, qonşulara üz tutub İ.Rzazadə haqqında bir şey bilib-bilmədiklərini soruşdum. Heç kəs tutarlı söz deyə bilmədi. Artıq sakitləşmiş Hökümə xanım da söhbətimizə qoşuldu. Bildirdi ki, bu mənzili bizə verəndə burada heç kəs yaşamırdı; mən Rzazadələr ailəsindən kimsəni görməmişəm.

Az qala hər şeydən əlimi üzüb kor-peşman geri qayıtmağa yığışırdım ki, 27-ci mənzilin sakini, Universitetin müəllimi İrina Svetlova dadıma çatdı. Dedi ki, İ.Rzazadə tutulanda mən çox kiçik olmuşam, ona görə heç nə xatırlamıram. Ancaq mərhum anamın danışdığı bə'zi şeylər yadımda qalıb. Anam söyləyirdi ki, İsgəndər Rzazadə xaricdə təhsil almış yüksək savadlı və mədəni bir şəxs idi. Arvadı gözəl Asya xanımı sonsuz məhəbbətlə sevirmiş. İstəyirmiş ilk övladı oğlan olsun. Ancaq ilki qız doğulub. İkinciləri oğlan olanda isə alimin sevincinin həddi-hüdudu yoxmuş. Oğlanın adı Nazim idi. Mənimlə bir yerdə çəkilmiş şəkli də var. (Sonra o, ailə albomunu gətirib Nazimlə 4-5 yaşlarında çəkilmiş fotosunu göstərdi). Anam danışırdı ki, Asya xanım vərəmdən öldü. Bu hadisə alimi sarsıdıb. Arvadının qırxı günü evdə təkcə oturaraq patefonda qəmli havalar çaldırırmış. Qonşuları da evinə də'vət edib, ancaq onu tək qoymağı məsləhət biliblər. Elə həmin gecə də gəlib aparıblar. Gedəndə deyirmiş ki, mən günahsızam... (Sonralar bu danışılanların çoxunun doğruluğu təsdiqləndi).

İrina Aleksandrovna *"Nazim indi haradadır?"* sualı qarşısında yalnız çiyinlərini çəkdi və bacı-qardaşın xalasının yanında yaşadığını dedi.

Ev yiyəsi və qonşularla sağollaşıb küçəyə çıxdım.

Birbaş DİN-nin ünvan bürosuna gəldim. Aydın oldu ki, Bakı şəhərində Nazim İsgəndər oğlu Rzazadə adlı adam yaşamır. Ancaq bürodakı qız eyni ad-familli, atasının adı isə Abutalıb olan bir nəfərin ünvanını verdi. O illərdə hər şeyin mümkünlüyünü, hətta övladın qorxudan öz atasının adını da dəyişdirə biləcəyini düşünüb hər ehtimala qarşı Haqverdiyev küçəsindəki həmin ünvana da baş çəkməyi qərara aldım.

Ev yiyələri işdə idi. Kiçik qızlarından telefon nömrəsini öyrənib axşam zəng etdim. Nazimin özünü yenə tapmadım, ömür-gün yoldaşı Aidə xanım'la danışdım. Bildirdi ki, ərinin atasının adı həqiqətən Abutalıbdır və o, siz axtaran adam deyil.

Məni umudsuzluq çulğadı - deməli, dövrə qapandı, son mə'lumat yolu bağlandı; axı ünvan bürosunda qeydə düşməyən şəxsi hansı vasitə ilə tapa bilərsən? Gərək bütün Bakının evlərini mənzilbəmənzil gəzəsən!..

Səhəri gün işdə ikən telefonum zəng çaldı. Aida xanım idi. Dedi ki, bilirsiniz, axşam ərim gələndə onunla danışdıq, sən demə, həmin Nazim onunla bir sinifdə oxuyub. Hətta ərim olimpiadada birinci yeri tutubmuş, Nazim deyirmiş ki, qalib gələn mənəm. Ərim söyləyir ki, Nazim Engels küçəsinin Parkovı (indiki Mehdi Hüseyn) küçəsi ilə kəsişməsindəki böyük evdə qohumlarının yanında yaşayırdı, ancaq ünvanı dəqiq xatırlamıram. Ərimlə həmin Nazim sonuncu dəfə təxminən on il qabaq görüşüblər. O, deyəsən, Moskvaya köçüb, orada yaşayır.

Mə'lumat üçün Aida xanıma təşəkkür edib deyilən ünvana yollandım. Düz iki gün dalbadal Engels və Mehdi Hüseyn küçələrinin kəsişdiyi yerdəki bütün evlərin bloklarını bir-bir gəzib İsgəndər və Nazim Rzazadələri soraqladım. Heç kəs heç nə bilmədi. Mənzil-istismar idarəsində isə 37-nin ünvanları yazılan ev kitablarının çoxdan yandırıldığını öyrəndim. (Çox-çox sonralar bildim ki, axtardığım mənzil M.Hüseyn küçəsindəki 88 saylı evdəymiş; burada Nazimin xalası Aliyə xanım Tahirova yaşayırdı).

Aradan üç ay vaxt keçdi. Bu müddət uzunu İsgəndər Rzazadəni, onun yaxın adamlarını tanıyacaq şəxsləri axtarır, axtardıqca əlim boşa çıxır, əlim boşa çıxdıqca umudsuzluğa qapılırdım. Bir gün akademik İosif Yesmanın oğlu, köhnə dostum Boqdan İosifoviçi "yaxaladım". İ.Rzazadə Energetika Bölümündə onun atasının müavini olmuşdu, buna görə də ailələri arasında indi də əlaqə ola biləcəyini düşünürdüm. Oğul Yesmanın özü heç nə bilmədi, ancaq iki nəfərin telefon nömrəsini verib onlardan soruşmağımı məsləhət gördü.

Birinci nömrənin yardımı ilə tanınmış bir akademiklə görüşdüm. Dedi ki, İsgəndər Rzazadə mənim müəllimim olub. Ancaq uşaqlarından xəbərim yoxdur. *"Bəs İ. Rzazadə Azərbaycan energetika elminə nə kimi töhfələr verib, ondan hansı elmi-təcrübi irs qalıb?"* sorğuma qocaman alim *"elə bir şey yoxdur"* cavabını yerdi. Sözlərindən belə çıxdı ki, İ.Rzazadə mühəndis və elmi işçi kimi orta səviyyədən də aşağı durumuş. Əsas xidmətləri də budur ki, *"bir-iki xırda-xuruş"* su elektrik stansiyasının yaranmasında iştirak edib. Vəssalam!

Aradan 51 il keçəndən sonra da müəlliminin əməyini e'tiraf etməyə qıymayan dargöz şagirdin naxələfliyi mənə bərk tə'sir etdi və onunla danışmağı belə artıq sayıb ikrahla ayrıldım.

İkinci telefon nömrəsi isə Elmi-Tədqiqat Energetika İnstitutunun direktoru Asəf Hüseynov'un idi. O da dedi ki, heç nə bilmirəm. Ancaq boyun oldu ki, bir şey öyrənən kimi xəbər verəcəyəm.

Onun zəngini neçə gün gözləsəm də səs-səmir çıxmadı. Artıq əlimi hər yerdən üzmüşdüm.

İndiyədək heç bir uğursuzluq mənə bu qədər daxili əzab verməmişdi. İ.Rzazadənin qohumlarını, Nazimi tapmaq, alimin 37-dən sonrakı taleyini hökmən öyrənmək arzusu məni bir an da rahat qoymurdu. Elm tariximizdən düşüb itmiş bu böyük şəxsiyyətin millətimizə mütləq qaytarılmasının zəruriliyini dərk edir, ancaq acizliyimi duyduqca qovrulurdum. Sözsüz ki, o ailəni tanıyanlar Bakıda yox deyildi, bəlkə də lap mənim yanımda da hərlənirdilər, ancaq onları necə tanıyım, necə tapım?!





Yaşadığı otağın içində qiymətli əşyasını itirən, ancaq onu heç cür tapmayan adamın gününə düşmüşdüm!..

Noyabrın ilk günləri idi. Birdən Asəf Hüseynov zəng vurub bildirdi ki, təkcə onu öyrəndim ki, İ.Rzazadənin arvadı keçmiş xarici işlər nazirimiz Tahirə xanım Tahirovanın qohumudur.

Bu xeyirxah insan heç ağlına da gətirmədi ki, əslində bir cümləlik mə'lumatı ilə üstündə aylarla çalışdığım dolaşıq düyünü açdı...

# ÖVLADLAR TAPILDI

*Allah səbr edənlərlədir!*
*(Qur'an, "əl-Ənfal": 66)*

Tahirə xanım söylədi ki, İ.Rzazadənin arvadı **Asya Əziz qızı Tahirova** mənim dayıqızımdır. Oğlu **Nazim** indi Moskvada yaşayır (ünvanını və ev telefonunu verdi). Qızı **Elmira** isə Bakıdadır, kimyaçıdır, APİ-də müəllim işləyirdi (telefonunu tapa bilmədi).

Moskvaya - Nazimin evinə nə qədər zəng vursam da dəstəyi götürən olmadı. Elmira xanımı tapmaq üçünsə xeyli vaxt getdi. Vaxtilə işlədiyi APİ-nin (indiki N.Tusi adına ADPU) kimya kafedrasından onun ən yaxın rəfiqəsi Nəzirə xanım Mehmandarova'nın telefonunu tapıb verdilər. İki gündən sonra Nəzirə xanımdan öyrənə bildim ki, Elmiranın indiki familiyası Sultanovadır, təqaüdə çıxıb və ev telefonu da fi-landır.

...Son illərdə məni Elmira Sultanovadan ilk dəfə eşitdiyim "allo" sözü qədər bəlkə də heç nə sevindirməmişdi - bu sözü eşitmək üçün çox əziyyət çəkdiyimdənmi, yoxsa İsgəndər Rzazadə nəslindən kimsənin intizarında uzun müddət olduğumdanmı, bilmirəm. Avqustun 27-sində nə qədər qol-qanadı sınıq idimsə bu gün o qədər sevincək idim!

Elmira xanım qardaşının Moskvadakı ev telefonunu soylədi. (Sən demə, Tahirə xanımın verdiyi nömrənin ilk iki rəqəminin yerləri dəyişik düşübmüş, həmin nömrə isə, ümumiyyətlə, yoxmuş, ona görə də Moskva ilə danışığım baş tutmurmuş).

Sonra onunla görüşmək üçün sözləşdik. Axşam isə Moskvaya zəng vurdum. Nazim evdə yoxdu. Uşaqları ilə danışıb telefon nömrəmi qoydum. Səhərisi işdən mənimlə danışdı. Atası ilə bağlı bə'zi sənədləri göndərəcəyini bildirdi.

Bir gün keçmiş Elmira xanımla görüşdük, ancaq söhbətimiz məcburən yarımçıq qaldı. Araya unudulmaz noyabr-dekabr hadisələri düşdü. 89-un yanvarın 15-də Moskvadan məktub aldım. İki həftə sonra isə yenidən Elmira xanımla görüşüb İsgəndər Rzazadənin ömür yolunun kölgəli guşələrini öyrəndim...

# KİMDİR İSGƏNDƏR RZAZADƏ?

*Onların (axirətdə) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər.*
*(Qur'an, "əl-Bəqərə": 274)*

Kimdir İsgəndər Rzazadə və Azərbaycanın elm tarixində hansı yeri tutur, daha doğrusu, tutmağa mə'nəvi haqqı olduğu, ancaq zorakılıqla məhrum edildiyi hansı yer onun adı ilə bağlıdır? Çağdaşlarının, yoldaşlarının, işdaşlarının və şagirdlərinin bilərəkdən və bilməyərəkdən, ad-sanına, xidmətlərinə yiyə çıxanların istəməyərəkdən 51 il cavabsız qoyduğu bu sorğunun cavabı ürəyi həm göynədir, həm də onu öyünc, qürur hissləri ilə doldurur. Təkcə özünə yox, bütövlükdə Azərbaycan energetika elminə qarşı edilmiş cinayətin ölçüsünü duyduqca ürək sızıldayır, ancaq yox edilmiş şəxsin yoxedilməzliyinin əzəmətlini, təntənəsini gördükcə bu sızıltının yerini qürurlu duyğular tutur...

***

Tehranın kasıb adamlarından biri olan həmədanlı **Kərim kişi** oğlu Cabbarı çox erkən yaşlarında, özü də zorla evləndirmişdi və Cabbarın sevmədiyi bu qadından Səttar adlı bir oğlu və bir qızı da vardı. Sevgi bəsləyə bilmədiyi ailədən yaxa qurtarmaqçün 1870-ci ildə Tehrandan baş götürüb qaçan **Cabbar** Bakıya gəldi və burada müxtəlif şəxslərdən həkimliyin sirlərini öyrəndi. Ancaq həkimlik etməyə icazə verən rəsmi sənədi - həkimlik diplomu olmadığına görə gizli şəkildə müalicəylə məşğul olmağa başladı. Bir neçə il sonra Qazana gedərək buradakı məşhur tatar dövlətlisi Ömər ağanın qızı Gülcamalı uzunmüddətli ağır ruhi xəstəlikdən sağaltdı və 1893-cü ildə Ömər ağanın obiri qızı **Güləndam xanım**'la evləndi.

Cabbar yeni ailəsiylə 1894-cü ildə Rusiyaya səyahətə çıxdı və Yaroslavl, Moskva, Kolomna, Peterburq, Tiflis şəhərlərini gəzdi. Kolomnada olarkən oğlu **Qafar (2.4.1894-1968)** dünyaya gəldi.

Özünün və ailəsinin yaşayışını tə'min edəcək qədər təcrübə qazandığına tam arxayın olan Cabbar yenidən Tehrana qayıtdı. Artıq Rusiyadan gəlmiş məşhur mütəxəssis sayılaraq hətta "həkimbaşı" çağırılan və başqalarından onu "*Mirzə Cabbar xan*" adlandırmağı tələb edən həkim 1894-cü ildə Nasirəddin şah Qacarın (1831-1896) sarayına də'vət edildi və saray xanımlarının müalicəsi kimi mühüm və ciddi bir işlə məşğul oldu. 1896-cı ildə şahı Rza adlı birisi tapança atəşiylə qətlə yetirəndən sonra həkimin şah sarayında xidməti də başa çatdı.

**18 noyabr 1897-ci ildə Mirzə Cabbar xanın ikinci övladı İsgəndər Tehranda anadan oldu.**

1899-cu ildə arvadının istəyiylə Rusiyaya dönməyə qərar verən Mirzə Cabbar ailəsiylə Tehrandan köçərək öncə Qəzvinə, 1900-cü ildə Rəştə (burada həmin il onun qızı **Firəngiz** dünyaya gəldi), 1903-cü ildəsə Ənzəliyə, oradan da Bakıya gəldi.





İrandan fərqli olaraq Rusiyada diplomsuz adamın həkim işləməsi yasaqdı və belə şəxsi istənilən vaxt həbs edə bilərdilər, Mirzə Cabbarınsa başqa heç bir sənəti yoxdu, buna görə də o xüsusən yerli həkimlərin dövlət orqanlarına şikayət etməsi üzündən tez-tez yaşayış və iş yerini dəyişməyə, bu şəhərdən başqasına köçməyə məcbur olurdu. Məsələn, 1903-cü ildə o və ailəsi Bakı - Tiflis - Qars - İrəvan mahalındakı Qarakilsə, Allahverdi - Tiflis - Kutais marşrutu üzrə hərəkət etmişdi. Çox vaxt ailəsindən uzaqda işləməsi və aylarla evə gələ bilməməsi üzündən Kutaisdə arvadıyla onun arasında narazılıq yarandı və ayrılmalı oldular. Razılığa əsasən Mirzə Cabbar İsgəndəri də götürüb Batuma getdi, Güləndam xanım, Qafar və Firəngizsə Kutaisdə qaldılar. Ancaq övlad sevgisi ailəni Tiflisdə yenidən birləşdirdi.

Təbii ki, bu zaman köhnə problem - yaşayış uğrunda mübarizənin yol yoldaşı olan məhrumiyyətlər yenə öz yerində qalmışdı. Buna görə də Mirzə Cabbar gizli həkimlik "meydanı" tapmaqçün axtarışlarını sürdürməkdəydi. 1904-də onlar Tiflisdən Gəncəyə, oradan Yelenendorf (indiki Xanlar) və Slavyankaya, oradan yenə Yelenendorf, Gəncə və Tiflisə getdilər. Söz yox ki, bütün bu gəzintilər balaca İsgəndərin də dünyagörüşünə ciddi tə'sir göstərirdi. Ən müxtəlif yerlərlə, şəhərlərlə, ən müxtəlif təbiətli ailələr və insanlarla tanış olduqca onu çulğayan mühit haqqında təsəvvürləri genişlənir, eyni zamanda, atasının nə qədər əzab-əziyyət çəkdiyini müşahidə etdikcə yaşayışın çətinliklərini çox erkən yaşlarından bütün gerçəkliyiylə dərk edirdi. Bu üzücü köçəköçlər onda uşaq marağı doğursa da yaşına yaraşmayan dərəcədə zəngin həyat təcrübəsi də qazandırırdı. Görünür, sonralar öz ailəsinə qayğıcıllıqla, duyumculluqla yanaşmasının özülü də elə həmin uşaqlıq çağlarında qoyulmuşdu.

1905-ci il həm Rzazadələr ailəsinin, həm də şəxsən İsgəndərin həyatında dönüş ili oldu. Belə ki, onlar Tiflisdəykən yeni canişin Vorontsov-Daşkov Mirzə Cabbara xiromantiya (əl cizgilərinə baxmaqla taleyi öncədən müəyyənləşdirmə) ilə məşğul olmağa rəsmən icazə verdi. Artıq heç kəsdən çəkinmədən və heç yerə köçməyə vadar olmadan sərbəst işləmək imkanı qazanmış Mirzə Cabbardan ötrü xiromantiya əslində həkimliyini davam etdirməkçün çox gözəl və e'tibarlı pərdəyə çevrildi. Bundan sonra ailənin maddi və psixoloji durumu da sabitləşdi və uşaqların təhsil və tərbiyəsinə daha ciddi yanaşıldı. Məsələn, İsgəndər uşaq bağçasına verildi. İndiyədək müxtəlif rus dayələrindən tərbiyə alan və rus dilini də öyrənən İsgəndərin uşaqlığında bağça ilk ən önəmli dönəmdir.

Artıq inqilab dənizində çapalamağa başlayan Rusiya özünün xilasını xalqları bir-birinə qırdırmaqda görürdü. Ondan "Böyük Ermənistan" yaratmaq və'dini almış ermənilər bu gün olduğu kimi onda da türkləri - düşmənlərinin "azərbaycanlı" adlandırmağı sevdiyi bizləri rus silahıyla qırmağa başladılar. Bu qırğın ermənilərin türklərlə birgə yaşadığı bütün torpaqlarda, o sıradan Tiflisdə də şiddətlə gedirdi. Ermənilərin törətdikləri vəhşiliklərdən dəhşətə gələn Rzazadələr ailəsi daha bu şəhərdə yaşamağın mümkünsüzlüyünü görüb Bakını ömürlük vətən seçdi.

Elə həmin 1905-də uşaqlarını məktəbə vermək istəyən Mirzə Cabbar xan çətinliklərlə üzləşdi. Yalnız Hacı Zeynalabdin Tağıyevin sevimlisi, Bakı real məktəbinin

şəriət müəllimi **Mirzə Yusif Talıbzadə**'nin işə qarışmasından sonra Qafar Bakı real məktəbinə qəbul edildi, İsgəndərsə yuxarı hazırlıq sinfinə götürüldü. 1 sentyabr 1907-də İsgəndər artıq həmin məktəbin birinci sinif şagirdiydi. İkinci sinifdə ona da şəriət və türk dili dərslərini Mirzə Yusif Talıbzadə deyirdi. Məhz uşaqların sayəsində bu gözəl insanın ailəsiylə Rzazadələr arasında çox yaxın ünsiyyət yaranmışdı. Belə ki, Mirzə Yusifin həm öz ailəsi, həm bacısı Ruqiyyə xanım və onun əri Mirzə Tağı tez-tez Mirzə Cabbargildə və Mirzə Cabbargil də onlarda qonaq olardılar. Əlbəttə, isgəndərin tərbiyəsinə bu amil də çox ciddi tə'sir göstərmişdi.

Artıq maddi vəziyyətini tam qaydaya salan ailə 1908-dən başlayaraq uşaqları hər il yay tə'tilində ya Qafqazın mineral sularına - Kislovodsk və Jeleznovodska aparır, ya da onlarla Abşeron bağlarında dincəlirdi. Bu müddətdə Güləndam xanım da boş oturmamış - diş həkimliyi sənətinə yiyələnmişdi və onun xeyli geniş müştəri dairəsi yaranmışdı. Bu, ananın ailə işlərində aparıcı qüvvəyə çevrilməsiylə nəticələndi. İndiyədək öz ailəsinin şahı kimi hər yerdə və hər şeydə söz yiyəsi olmuş Mirzə Cabbar xan bu durumda, görünür, doğru yolu tapa bilmədi - 1908-də o, Salyandan olan 18 yaşlı **Mələkə** adlı bir qızla evləndi və Güləndam xanımın e'tirazına baxmayaraq onu evə gətirdi. Bu zamandan ailə birdəfəlik parçalandı və Mircə Cabbar Güləndam xanımın uşaqları da götürüb başqa evdə yaşamasına icazə verdi. Doğrudur, o, bundan sonra da övladlarına həmişə qayğı göstərməyə çalışdı, ancaq uğursuz seçimi sonucunda özünün maddi və mə'nəvi durumu sarsıntılara uğradı. Beləliklə, 1908-dən başlayaraq İsgəndər də əslində ana himayəsində böyüdü və təhsil aldı.

*(Bütün bu hadisələr İsgəndər Rzazadənin böyük qardaşı Qafar Rzazadənin 1964-65-ci illərdə qələmə aldığı, yalnız 3 cildiylə tanış ola bildiyim çoxcildlik* ***"Xatirələr"*** *adlı əlyazmasında incəliklə təsvir edilib).*

# MUSAVAT HÖKUMƏTİNİN OXUTDUĞU TƏLƏBƏ

*Biz ayələrimizi belə başa salırıq ki, onlar:*
*"Sən dərs almısan",- desinlər və*
*Biz də onu bilən bir camaata izah edək.*
*(Qur'an, "əl-Ən'am": 105)*

1915-ci ildə Bakı real məktəbində orta təhsilini qızıl medalla başa vuran İsgəndər maddi sıxıntı üzündən hələ 5-ci sinifdə ikən evlərdə dərs verməklə dolanırdı. Həmin il **Peterburq Politexnik İnstitutunun elektromexanika fakültəsinə** girən gənc burada dörd semestr oxuyub 3 kursa keçdi. Ancaq 1917-nin payızında Peterburqda vətəndaş müharibəsi olduğuna görə yay tə'tilindən sonra oraya gedə bilməyib Bakıda qaldı və **Bibiheybətdə mərkəzi elektrik stansiyasında** (sonralar L.Krasin adına idi) iki il təcrübəçi, son vaxtlardasa stansiya mexaniki işlədi.





Azərbaycan Cümhuriyyəti dövründə - 1919-un avqustundan 1920-nin yanvarınadək isə **Azərbaycan dəmiryolunun Bakı və Biləcər stansiyaları və şəbəkələrinin müdiri** vəzifəsində çalışdı.

**Azərbaycan Cümhuriyyəti hökuməti 1920-ci ilin başlanğıcında ali təhsilini başa vurmaq üçün onu Fransaya göndərdi.** Maddi vəziyyətinin ağırlığını və dərslərdəki uğurlarını göz önündə tutub ona dövlət təqaüdü kəsildi. 1920-nin payızında ali məktəbə girənədək Parisdə - **Sorbon Universitetində** fransız dili məktəbini bitirdi, eyni vaxtda avqust-noyabr aylarında **Parisdəki SQE firmasında** çertyojçu işlədi. 1920/21-ci dərs ilində və 1921/22-ci dərs ilinin birinci yarısında **Nansi şəhərində Ali Elektrotexnika İnstitutunda** oxudu, eyni zamanda 1921-in avqust-noyabr aylarında **Brebax şəhərindəki "Gilbergütt" firmasında** konstruktor oldu. 1922-nin başlanğıcında **Almaniyanın Darmştadt şəhərindəki Ali Texniki Məktəbə** dəyişdirilən İ.Rzazadə 1924-də həmin məktəbin elektrotexnika fakültəsini *"çox yaxşı"* qiyməti və mühəndis-elektrik diplomu ilə qurtardı. *"110.000 v. yüksəkvoltlu ötürmə"* adlı diplom layihəsini məşhur professor Petersenin rəhbərliyi altında yerinə yetirdi.

Ali məktəbi bitirən İ.Rzazadə 5 dekabr 1924-cü ildən Darmştadt şəhərinin elektrik stansiyasında təcrübəçi mühəndis vəzifəsində işə başladı və bir azdan sonra - 1925-in 25 yanvarında **Berlindəki AEQ (Umumi Elektrik Şirkəti) firmasına** həmin vəzifəyə dəyişildi. Berlində olduğu son dörd ayda (1 aprel - 1 avqust 1925) eyni zamanda **Azərneftin Berlin kontorunda** mühəndis işlədi və Berlinin ən böyük elektromexanika və mexanika zavodlarının işi ilə tanış oldu. Burada öyrəndikləri gələcək işlərində onun əlindən tutdu.

# MUHƏNDİS

*Allah nə etdiklərinizi görəndir.*
*(Qur'an, "əl-Ənfal": 72)*

Azərneftin rəisi P.Serebrovski 1925-in sentyabrında onu Bakıya - Elektrik Cərəyanı İdarəsinin ("Elektrotok") sərəncamına çağırdı və o, 1926-nın payızınadək texniki şö'bədə layihəçi mühəndis kimi çalışdı. Bu idarədə işlədiyi vaxtda Ağ şəhərdəki **"Qırmızı ulduz" stansiyası ilə İ. Şmidt zavodu arasında 20.000 voltluq ötürmə xəttini layihələndirdi.** (Bu xətt bir qədər sonra çəkildi).

İ.Rzazadə 1927-nin sentyabrında mühüm vəzifəyə irəli çəkildi - **Umumittifaq Xalq Təsərrüfatı Şurasının Bakıdakı Elekrotikinti Şö'bəsi elektrotexnika hissəsinin müdiri** qoyuldu və 1929-un mart-avqust aylarında şö'bə baş mühəndisinin müavini oldu.

Bu şö'bədə işlədiyi vaxt **Şəki** (1927), **Aşağı Zurnabad** (1928), **Zaqatala** (1928), **Stepanakert** (1929) **su elektrik stansiyalarının elektromexanika hissələrini** layihələndirdi və onların quraşdırılmasına başçılıq etdi. O, **Qarasaqqal**

**SES-in** də layihəsini vermişdi. İ.Rzazadənin 1934-də eskizini hazırladığı **Tərtər - Gəncə ötürmə xəttinin** layihəsi bəyənilmiş və təsdiq edilmişdi. Bunlardan başqa, Bakı şəhərindəki bir çox müəssisələrin (toxuculuq fabriki, baramaaçan fabrik, sement zavodu və b.) elektrikləşdirilməsi layihələri də İsgəndər Rzazadə əməyinin məhsuludur. Dəmiryolunun elektrikləşdirilməsində də onun zəhməti az olmayıb.

Təsadüfi deyil ki, artıq nüfuzlu mütəxəssis kimi ad-san qazanmış mühəndisdən eyni zamanda respublika **Dövlət Plan Komitəsində Azərbaycan SSR-in elektrikləşdirilməsi məsələləri üzrə əsas məsləhətçi** kimi istifadə olunurdu.

Qarasaqqal SES-in layihəsinin Ümumittifaq Elektrotexnika Birliyinə (ÜEB) verilməsi ilə bağlı olaraq 1929-un avqustunda buraya dəyişdirilən İ.Rzazadə 1931-in yanvarınadək Azərneft mə'dənlərinin və Birliyin başqa trestlərinin elektrik avadanlıqlarına xidmət edən **UEB Neft Şö'bəsinin böyük mühəndisi** vəzifəsində çalışdı.

1931-in yanvarında İsgəndər Rzazadə "direktiv orqanlar"ın qərarı ilə **Azərbaycan SSR Dövlət Plan Komitəsi energetika bölməsinin sədri**, eyni zamanda Rəyasət Hey'ətinin üzvü qoyuldu və 1933-ün martınadək bu vəzifədə qaldı. 1932-nin iyulunda isə eyni vaxtda həm də **SSRİ Ağır Sənaye Komissarlığının Azərbaycan Xalq Komissarları Şurasındakı müvəkkilinin müavini** işlədi. (Bu vəzifədə 1934-ün iyununadək çalışdı).

Təşkilatçılıq qabiliyyətini, səriştəliliyini göz önündə tutub onu **SSRİ Xalq Ağır Sənaye Komissarlığı (XASK) "HİDROENERJİLAYİHƏ" Tresti Azərbaycan şö'bəsinin ("Az.QidEP") başçısı** qoydular (1937-nin 1 martınadək).

1935-in yanvarında İsgəndər Rzazadə **VII çağırış ZSFSR Mərkəzi İcraiyyə Komitəsinin üzvü** seçildi.

Tapşırılan bütün işlərin öhdəsindən bacarıqla gələn, qarşıda duran hər hansı məsələnin icrasına son dərəcə məs'uliyyətlə yanaşan İ.Rzazadənin "təsərrüfat cəbhəsində fədakar əməyi", "yaxşı zərbəçi işi" çalışdığı komissarlıq və trestlərin fəxri fərmanları ilə qeyd olunmuş, respublikada" "texniki kadrların yetişdirilməsində məhsuldar əməyi" isə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Fəxri fərmanı ilə mükafatlandırılmışdı (1936).

## MUƏLLİM

*Əgər doğru danışırsınızsa kitabınızı gətirin.*
*(Qur'an, "əs-Səffat": 157)*

Leninin ölkənin elektrikləşdirilməsinin kommunizmin ən mühüm tərkib hissəsi olduğu haqqında məşhur müddəasının fəaliyyət proqramı kimi götürüldüyü və Azərbaycanın az qala başdan-başa çıraq umuduna qaldığı bir vaxtda ana yurdunu gözqamaşdırıcı elektrik işığında çimdirmək istəyi ilə gecəsini gündüzünə qatan istə'dadlı mühəndis qüvvəsini yalnız xalq təsərrüfatındakı təcrübi işlərlə məhdudlaşdırmırdı. Məşğul olduğu sahə üzrə milli kadrların çox qıt olduğu bir zamanda





üzərinə düşən tarixi vəzifənin əhəmiyyətini o, yaxşı dərk edirdi. Buna görə də daha çox yerdə, xüsusən pedaqoji və elmi işdə də xalqına fayda verməyə çalışırdı.

Geniş dünyagörüşlü müəllim və hazırlıqlı elmi işçi olan İ. Rzazadə 8 sentyabr 1925-dən həbs edilən günədək **Azərbaycan Politexnik İnstitutunda** (sonralar o, **"Azərbaycan Sənaye İnstitutu"** və **"Azərbaycan Neft İnstitutu"** adlandırılıb; indiki Azərbaycan Neft Akademiyasıdır) müəllim, bir qədər sonra dosent və kafedra müdiri işləmişdi.

İlk vaxtlar elektrotexnika kafedrasında elektrikölçmə və elektrik maşınları laboratoriyalarında laboratoriya məşğələlərinə rəhbərlik edən İ.Rzazadə 1928-dən institutun inşaat və dağ fakültələrində ümumi elektrotexnika fənnindən müstəqil məşğələlər aparmağa başladı. 1933-dən o, elektrotexnika fakültəsinin yuxarı kurslarında *"elektrik enerjisinin ötürülməsi və paylanması"* adlı xüsusi fəndən ilk dəfə mühazirələr təşkil edib.

1926-cı ildən **N.Nərimanov adına Sənaye Texnikumunun elektrotexnika fakültəsində** dekan (1927-ci ilin sentyabrınadək) və müəllim işləyən İ.Rzazadə 7 il *"elektrik ölçmələri"*, *"mərkəzi elektrik stansiyaları"*, *"ümumi elektrotexnika"* və *"elektrik maşınları"* fənlərindən məşğələlər aparıb. Bu texnikumda elektrikölçmə və elektrik maşınları laboratoriyalarını da 1926-da İ.Rzazadə yaratmış, 1932-ci ilin iyununadək onlara başçılıq etmişdi.

**1930-un mayında İsgəndər Rzazadəyə dosent elmi rütbəsi verildi.** 1934-də isə Azərbaycan Sənaye İnstitutunun elmi şurası ona dissertasiya müdafiə etmədən texnika elmləri namizədi alimlik dərəcəsi vermək haqqında vəsatət qaldırsa da, görünür, həsədini çəkənlər də tapıldı və bu işə mane oldular.

Bu gözəl müəllim sonralar Azərbaycan Neft İnstitutunun energetika fakültəsinin son kurslarında *"elektrik şəbəkələri"*, *"yüksək gərginlikli ötürmə xətləri"* fənlərindən mühazirələr oxumuşdu. Onu da hökmən göstərməliyik ki, **respublikada bu fənlər üzrə ana dilimizdə ilk mühazirələrin təşkili və energetika terminlərinin yaradılması İsgəndər Rzazadənin adı ilə bağlıdır.**

1935-də Azərbaycan Sənaye İnstitutunda özünün yaratdığı *"Elektrik şəbəkələri və yüksək gərginlik texnikası"* kafedrasına müdir qoyulan dosent İ. Rzazadə burada elmi işin səviyyəsini xeyli qaldırdı. O, tələbələr üçün 18 işin qoyuluşunu təşkil etdi və həmin işlərin aparılması üçün metodik göstəriş hazırlayıb çapa verdi (sonralar nəşr olunmadı). İşlər haqqında təsəvvür yaratmaq üçün bir neçəsini ötəricə göstərək. Son dərəcə bacarıqla quraşdırılmış impuls generatoru, klidonoqraf və katod ossilloqrafı dörd nəfərlik tələbə qrupuna 3-4 akademik saatda katod ossilloqrafında, klidonoqrafda fotoların eyni zamanda çəkilişi və təhlili üçün bütün təcrübi işləri görməyə imkan verirdi.

1936-cı ildə Azərbaycan Enerji İdarəsi ("Azenerqo") qarşısında 110 kilovoltluq xətlərdəki hörüklərin üstünün duz qalıqlarının, toz və dumanın tə"siri altında örtülməsinə qarşı mübarizə aparmaq məsələsi qoyuldu və həmin problemin həlli Azərbaycan Sənaye İnstitutuna tapşırıldı. İsgəndər Rzazadənin başçılıq etdiyi briqada içməli suya həddən artıq qənaət tələb olunan Abşeron şəraitində 110 kilovoltluq

izolyatorların yuyulması yollarını təcrübədə uğurla həll etdi və işin nəticələri adı çəkilən müəssisə sistemində geniş ölçüdə tətbiq olundu. İşinin faydasını görən alim bütün Azərbaycanda elektrik xətlərinin iş rejiminə hava şəraitinin tə'sirini öyrənməyə başladı və çox maraqlı nəticələr əldə etdi. O, elmi axtarışlarını 1937-ci ilin sonunadək yekunlaşdırmağı nəzərdə tutmuşdu...

## ALİM

*Ən yetkin dövrünə çatdıqda*
*ona hikmət və elm verdik.*
*(Qur'an, "Yusif": 22)*

Elmdə öz sözünü deməyə başlayan alimi **SSRİ EA Zaqafqaziya Filialı Azərbaycan Bölməsinə (EA ZFAB)** də'vət etdilər. 1 yanvar 1934-də "Azərbaycan Qırmızıbayraqlı Neft İnstitutunun dosenti, mühəndis-elektrik" İ.Rzazadə Bölmənin Rəyasət Hey'ətinə belə bir ərizə yazdı: *"EA Zaqafqaziya Filialı Azərbaycan Bölməsi Rəyasət Hey'ətinin sədr müavini mühəndis [Cəfər] Kazımovla danışıqlarımıza əsasən bununla nəzərinizə çatdırıram ki, 1934-cü ilin başlanğıcından Energetika Bölümündə tətbiqi elektrotexnika sahəsində elmi-tədqiqat xətti ilə işləməyə hazıram və bununla məni adı çəkilən bölümün elmi əməkdaşları sırasına götürməyinizi xahiş edirəm"*.

Ərizəyə **Cəfər Kazımov (1897-1968)** ertəsi gün belə bir dərkənar qoydu: *"Energetika Bölümü, prof.Yesmana. 1934-cü ilin ştatı təsdiq ediləndə dos. Rzazadəni I dərəcəli elmi işçi kimi ora daxil etməyinizi və Rəyasət Hey'ətinin təsdiqinə verməyinizi xahiş edirəm"*.

3 fevral 1934-cü ildən o, Energetika Bölümünə I dərəcəli elmi işçi götürüldü. 1937-nin 1 aprelindənsə burada **bölüm rəhbərinin müavini**'ydi.

Ana dilindən başqa rus, alman, fransız dillərini ə'la, ingilis, gürcü və erməni dillərini zəif bilən alim geniş çeşidli elmi ədəbiyyatdan bacarıqla istifadə edirdi.

İ.Rzazadə Energetika Bölümündə işlədiyi qısa vaxtda da ciddi elmi araşdırmalarla məşğul oldu. Onun *"Abşeronda küləyin gücündən istifadə məsələsinə dair"* 105 makina səhifəsi həcmindəki, 26 şəkilli elmi işində külək enerjisinin hesablanmasının bütünlüklə yeni qrafik üsulu ortaya qoyulmuşdu.

*"ASSR-in energetika ehtiyatları"* adlı 14 çap vərəqi həcmində ortaqlı elmi işində respublikanın neft, qaz, su, külək, günəş və bərk yanacaq ehtiyatlarının vəziyyəti çoxlu xəritələrlə təhlil edilmişdi.

EA ZFAB Nəbatat bağında quraşdırdığı SVEİ tipli çoxqatlı külək mühərrikində apardığı sınaq işlərinin nəticələri də maraqlı olmuş, bu haqda dəyərli elmi hesabat hazırlamışdı.

Vətəndaş alimin araşdırmalarında, elmi yazılarında Azərbaycan energetikasının inkişaf yolları axtarılır, onun çiçəklənməsi üçün konkret vasitələr göstərilirdi. *"Beşillik planda ASSR-in elektrikləşdirilməsi"* (1928) adlı ilk məqaləsindən başlayaraq





# İSGƏNDƏR RZAZADƏNİN ÖMÜR YOLU FOTOLARDA



Tiflis, 1903



*Qafar və Isgəndər.* Tiflis, 1903



Bakı, 1905



*Mirzə Cabbar, Qafar, Firəngiz, Isgəndər, Güləndam xanım.* Bakı, 1905



*Güləndam xanım, Firəngiz, Qafar, Mirzə Cabbar, Isgəndər.*
Bakı, 1908



*Firəngiz, Qafar, Isgəndər.* 1913







*Isgəndər anası Güləndam xanımla.*
1913



*Isgəndər qardaşı Qafarla.* 1906

*Isgəndər Fransada.* 1920
(Soldakı şəkil)

*Isgəndər Nansi şəhərində (Fransa).*
13 dekabr 1920















*I.Rzazadə Berlində*
(yuxarıda soldakı şəkildə sağda dayanan).
Iyun 1922

*I.Rzazadə Darmştadt şəhərində*
(sağdakı şəkildə pilləkəndə oturan).
Iyun 1923

Borjom. Avqust 1935

YITMASINI HAÇAN GÖZLƏYƏK... (Təxminən eyni məzmunlu ərizəylə 27 iyul 1955-də qardaşı Qafar da DTK-ya müraciət edib).

...Yalnız ölümündən 19 il sonra həmin kommunistlər suçsuz İsgəndər Rzazadənin öldürüldüyünü ailəsinə bildirdilər və günahsız olduğuna görə 21 avqust 1956-da ona bəraət verdilər!..

## DAĞILAN TİFAQ

*(Allah) istədiyinə kömək edər.*
*O, yenilməz qüvvət, mərhəmət sahibidir!*
*(Qur'an, "ər-Rum": 5)*

İsgəndərin tutulması ilə Rzazadələr ailəsinin başqa üzvlərinin də ağır günləri başlandı. Qardaşı - texnika elmləri namizədi, Azərbaycanda günəş enerjisindən istifadə üzrə ilk mütəxəssis **Qafar Rzazadə (1894-1968)** uzun illər "xalq düşməninin qardaşı" damğasının ağır boyunduruğu altında əzildi. Bacısı - sovet Azərbaycanının ilk qadın həkimlərindən biri olan **Firəngiz xanım Səfərova (1900-1983)** ikiqat əzaba uğradı. Birdən-birə iki "xalq düşməni" - Azərbaycan SSR-in torpaq komissarı (naziri) olan əri **Həsən Səfərov**'la və qardaşı İsgəndərlə qohumluğu üstündə onu da 1938-də tutub həbs düşərgələrinin cəhənnəmini göstərdilər. 1956-da bəraət alan Firəngiz xanım ana yurduna qayıtmaqdan çəkindi, Sverdlovska gedib kiçik qızının yanında yaşadı. (Onun böyük qızı **Zara xanım Səfərova** respublikanın tanınmış müəllimlərindəndi).

İsgəndərin ata-anasız qalmış uşaqları yalnız xalaları **Aliyə xanım Tahirova** və dayıları **Həsən Tahirov**'un qayğısı sayəsində sağ qaldılar. Doğrudur, Elmira xanım ərinin - tarixçi **Sultan Sultanov**'un soyadını götürməklə üstünə yağan zərbələrin sayını nisbətən azalda bildi, ancaq kənd təsərrüfatı elmləri namizədi Nazim Rzazadə psixoloji sarsıntılardan birdəfəlik qurtulmaqçün ali təhsil aldığı Moskva şəhərində qalıb ömürlük burada yaşamağa üstünlük verdi.

***

Ana dilimizdə qədimdən-qədim, şirindən-şirin bir söz var - *"ərdəm"*. Mə'nası *"qeyrət"* deməkdir. Ancaq ərdəm *güc* ilə, *enerji* ilə yoğrulmuş qeyrətdir. Bütün alim gücünü və enerjisini doğma Azərbaycanımızın işıqlanmasına həsr etmiş ərdəmli alim İsgəndər Rzazadə energetika elmimizin beşiyi başında ərdəmlə, qeyrətlə dayanmışdı. O, millətimizin ləyaqətli oğlu idi. Belə şərəfli oğulların adını yaşatmaq millətimizə başucalığı gətirər!

***28-29 yanvar 1989.***
***(2000-in aprel - iyununda yenidən işlənib).***





# İÇİNDƏKİLƏR

**Müəllifdən** .... 3

Axtarış .... 4-7
Övladlar tapıldı .... 7
Kimdir İsgəndər Rzazadə? .... 8-10
Müsavat hökumətinin oxutduğu tələbə .... 10-11
Mühəndis .... 11-12
Müəllim .... 12-14
Alim .... 14-16
Faciə .... 16-18
Həbs .... 19-20
Nə üstündə? .... 20-22
Dözümsüzlük, yoxsa .... 23-26
Yeni il gecəsi qətl .... 26-28
Dağılan tifaq .... 28

**İsgəndər Rzazadənin ömür yolu fotolarda** .... 15-22

2000
362

561